AZEL AUDİT
AUDİT VƏ MƏSLƏHƏT XİDMƏTLƏRİ

Dilarə Əliyeva Küçəsi 235A/5
AZ1010 Bakı - Azərbaycan
Tel: (+99412)599 01 11 Pbx
GSM:(+99450)255 94 11
E-mail: elza.suleymanova@azelaudit.az

**"UNİQUE BUSİNESS GROUP" MMC** -nin direktoru təsisçilərinə:

**Maliyyə hesabatlarının auditinə dair hesabat:**

**Şərti müsbət rəy**

Biz, **"UNİQUE BUSİNESS GROUP" MMC** -nin (bundan sonra «Cəmiyyət») 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, hesabatımızın «Şərti müsbət rəy üçün əsaslar» bölməsində əks etdirilən məsələnin nəticələri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına («BMHS») uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Şərti müsbət rəy üçün əsaslar**

Cəmiyyətin qeydləri göstərir ki, balansın aktiv və passiv maddələrinin inventarizasiyası aparılmışdır.

Biz auditimizi Beynəlxalq audit standartlarına («BAS») uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın «Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti» bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normalara uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etika məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Biz müəyyən etmişik ki, "Şərti müsbət rəy üçün əsaslar" bölməsində əks etdirilən məsələlər istisna edilməklə, bizim audit rəyimizdə açıqlanması zəruri olan əsas audit məsələləri mövcud deyildir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına («BMHS») uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda

fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Baş direktor Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz əlavə edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəffaflıq nümayiş etdiririk.

Biz Baş direktora digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrk.

Biz həmçinin Baş direktora bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik.

Baş direktorun nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatımızda təsvir edirik.

**«Azel - Audit» MMC-nin**
Direktoru və auditoru: **Süleymanova Elzadə Süleyman qızı**

**28 iyun 2018-ci il**

Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyət «AZEL-AUDIT» Limited Liability Company Azerbaijan Republic

**"UNİQUE BUSİNESS GROUP" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 1004005781)**
**31 dekabr 2018-ci il tarixə Maliyyə Hesabatları**

## Maliyyə Nəticələri Haqqında Hesabat

*manat*

| | Qeyd | 2018 | 2017 |
|---|---|---|---|
| **Əsas əməliyyat gəlirləri** | 6 | 7 130 966 | 1 674 293 |
| Satışın maya dəyəri | 7 | (5 087 427) | (1 056 103) |
| **Ümumi mənfəət** | | **2 043 539** | **618 190** |
| Sair əməliyyat gəlirləri | | - | 194 600 |
| Sair əməliyyat xərcləri | | - | - |
| Marketinq və kommersiya xərcləri | | - | - |
| İnzibati xərclər | 8 | (436 192) | (107 791) |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **1 607 347** | **704 999** |
| Maliyyə gəlirləri | 9 | - | - |
| Maliyyə xərcləri | 9 | - | - |
| Fövqaladə gəlirlər | 10 | - | - |
| Fövqaladə xərclər | 10 | - | - |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **1 607 347** | **704 999** |
| Mənfəət vergisi | 19 | (321 469) | (141 000) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **1 285 878** | **563 999** |
| **Xitam verilmiş əməliyyatlar** | | | |
| Mənfəət/ zərər | | - | - |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 20 | **1 285 878** | **563 999** |
| **Mənfəətdə iştirak payı:** | | | |
| - Təsisçilərin payı | 20 | 100 | 100 |
| - 1 paya düşən mənfəət | | 12 858.78 | 5 639.99 |

"UNİQUE BUSİNESS GROUP" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru:

Heybətov Nail Zöhrab oğlu

**"UNİQUE BUSİNESS GROUP" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 1004005781)**
**31 dekabr 2018-ci il tarixə Maliyyə Hesabatları**

## Maliyyə Vəziyyəti Haqqında Hesabat

| | Qeyd | 31 Dekabr 2018 | 31 Dekabr 2017 |
|---|---|---|---|
| | | *manat* | |
| **AKTİVLƏR** | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Qeyri maddi aktivlər | 13 | - | - |
| Torpaq, tikili və avadanlıqlar (Əsas vəsaitlər) | 13 | 6 206 063 | 3 176 003 |
| İnvestisiyalar | | - | - |
| | | **6 206 063** | **3 176 003** |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | 11 | 532 864 | - |
| Qısamüddətli debitor borcları | 14 | 242 809 | - |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 164 118 | 44 938 |
| Sair qısamüddətli maliyyə aktivləri | | - | - |
| Sair qısamüddətli aktivlər | 15 | - | - |
| | | ***939 791*** | ***44 938*** |
| **CƏMİ AKTİVLƏR** | | **7 145 854** | **3 220 941** |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Ödənilmiş nominal (Nizamnamə) kapitalı | | 30 | 10 |
| Kapital ehtiyatları | | - | - |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | - | - |
| **CƏMİ KAPİTAL** | | **30** | **10** |
| **Öhdəliklər** | | | |
| *Uzunmüddətli öhdəliklər* | | | |
| Təxirəsalınmış vergi öhdəliyi | | - | - |
| Uzunamüddətli kreditor borcları | 17 | - | - |
| | | - | - |
| *Qısamüddətli öhdəliklər* | | | |
| Qısamüdətli faiz xərcləri yaradan öhdəliklər | | - | - |
| Qısamüdətli qiymətləndirilmiş öhdəliklər | | | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 18 | 128 623 | 40 566 |
| Qısamüddətli kreditor borcları | 16 | 7 017 201 | 3 180 119 |
| Sair qısamüddətli öhdəliklər | 18 | - | 246 |
| | | ***7 145 824*** | ***3 220 931*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | ***7 145 824*** | ***3 220 931*** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **7 145 854** | **3 220 941** |

"UNİQUE BUSİNESS GROUP" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru:

Heybətov Nail Zöhrab oğlu

**"UNİQUE BUSİNESS GROUP" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 1004005781)**
**31 dekabr 2018-ci il tarixə Maliyyə Hesabatları**

**Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat**

| | Qeyd | 2018 | 2017 |
|---|---|---|---|
| | | | *manat* |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Vergitutmadan əvvəl mənfəət (xərclər) | | 1 607 347 | 704 999 |
| Mənfəət vergisi üzrə xərclər | | (321 469) | (141 000) |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | | |
| • Bina, qurğu və avadanlıqların amortizasiyası | 13 | 1 034 409 | 504 803 |
| • Qeyri maddi aktivlərin amortizasiyası | | - | - |
| • Bina, qurğu və avadanlıqların xaricolmasından mənfəət | | - | - |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | | |
| • Ehtiyatlar üzrə artma/azalma | | (532 864) | - |
| • Debitor borcları üzrə artma/azalma | | (242 809) | - |
| • Maliyyə aktivlər üzrə artma/azalma | | - | - |
| • Sair aktivlər üzrə artma/azalma | | - | - |
| • Əməliyyat kreditor borcları üzrə artma/azalma | | 3 837 082 | 549 636 |
| • Vergi və sosial sığorta öhdəlikləri üzrə artma/azalma | | 88 057 | (50 259) |
| • Uzunmüddətli kreditor borcları üzrə artma/azalma | | - | - |
| • Sair kreditor borcları üzrə artma/azalma | | (246) | 246 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **5 469 507** | **1 568 425** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | **20** | |
| Əsas vəsaitlərin alınması | 13 | (4 064 469) | (1 146 660) |
| Qeyri-maddi aktivlərin alınması | | - | 185 618 |
| Əsas vəsaitlərin xaricolması üzrə qalıq dəyəri | | - | - |
| Əsas vəsaitlər və qeyri-maddi aktivlər məzənnə fərqi | | - | - |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | (4 064 449) | **607 383** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc ödənilməsi/ daxilolmalar | | - | - |
| Kapitalda pay sahiblərinə ödənilən dividendlər | | (1 285 878) | (563 999) |
| Qeyri-nəzarət payına ödənilən dividendlər | | - | - |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(1 285 878)** | **(563 999)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)** | | - | - |
| Valyuta fərqləri | | - | - |
| **1 Yanvar tarixinə pul vəsaitləri və pul vəsaitləri ekvivalentləri** | 12 | **44 938** | **1 554** |
| **31 Dekabr tarixinə pul vəsaitləri və pul vəsaitləri ekvivalentləri** | 12 | **164 118** | **44 938** |

"UNİQUE BUSİNESS GROUP" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru:

Heybətov Nail Zöhrab oğlu

## Kapitalda Dəyişikliklər Haqqında Hesabat

*manat*

| | Qeyd | Nizam namə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **01 yanvar 2017-ci il tarixə** | | **10** | **-** | **-** | **10** |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | - | - | - | - |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | - | - | 563 999 | 563 999 |
| Mülkiyyətçilərin kaptal qoyuluşları | | - | - | - | - |
| Mülkiyyətçilər arasında kaptalın bölüşdürülməsi (dividendlər) | | - | - | (563 999) | (563 999) |
| **31 dekabr 2017-ci il tarixə** | | **10** | **-** | **-** | **10** |
| | | | | | |
| **01 yanvar 2018-cı il tarixə** | | **10** | **-** | **-** | **10** |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | - | - | - | - |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | - | - | 1 285 878 | 1 285 878 |
| Mülkiyyətçilərin kaptal qoyuluşları | | 20 | - | - | 20 |
| Mülkiyyətçilər arasında kaptalın bölüşdürülməsi (dividendlər) | | - | - | (1 285 878) | (1 285 878) |
| **31 dekabr 2018-cı il tarixə** | | **30** | **-** | **-** | **30** |

"UNİQUE BUSİNESS GROUP" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru:

Heybətov Nail Zöhrab oğlu